

# MONİTORİNQ HESABATI

## Kürdəmir rayonu üzrə

aprel, 2022


Aqrar Tədarük və Təchizat

Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

AQRAR FƏALİYYƏTLİ AZƏRBAYCAN QADINLARI

ECOserve

# TƏRƏFDAŞLIQ HAQQINDA

Kənd Təsərrüfatı Nazirliyi yanında **“Aqrar Tədarük və Təchizat”** Açıq Səhmdar Cəmiyyəti (ATT) və Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Federal Nazirliyi adından (BMZ) ATT tərəfindən həyata keçirilən Aqrar Fəaliyyətli Azərbaycan Qadınları **(AFAQ) layihəsi** və GİZ tərəfindən davamlı inkişaf üçün təbii resursların səmərəli idarə olunması və istifadə edilməsi məqsədi ilə həyata keçirilən “Cənubi Qafqazda kənd yerlərinin davamlı inkişafı üçün təbii resursların idarə olunması və ekosistem xidmətlərinin mühafizəsi” **(ECOserve) layihəsi** çərçivəsində birgə tədbirlərin həyata keçirilməsinə dair razılıq əldə etmişlər. Əməkdaşlığın ümumi məqsədi ekosistem xidmətlərinin mühafizəsi, təbii resurslardan səmərəli istifadə, biomüxtəliflik və iqlimin qorunması, ətraf mühitə zərərsiz tədbirlərin həyata keçirilməsi və kənd əhalisinin rifahının yaxşılaşdırılması üçün bilik mübadiləsinin həyata keçirilməsidir.
Belə ki, əməkdaşlıq çərçivəsində **Kürdəmir rayonu** üzrə arıçılıq fəaliyyətinə başlamaq istəyən qadın fermerlər **nəzəri və təcrübi modullar üzrə təlimlərə** cəlb olunmuş və yekunda təlimləri uğurla tamamlayan **10 qadın fermer** üçün fərdi **arıçılıq təsərrüfatları yaradılıb**.
Layihələr çərçivəsində göstərilən dəstək tədbirlərindən Kürdəmir rayonunun Bağman, Garis-Əyribənd və Karrar kəndlərindən olan və layihələrə müraciət edən qadın fermerlər faydalanıblar. **Fermerlər müvafiq sahə üzrə arı yeşikləri, arı ailələri və müxtəlif ləvazimatlarla (çərçivə, arıçı geyimi, mum əridən qurğu, arı şanı, bal süzən qurğu və s.) təmin olunublar.** Həmçinin dəstək göstərilən arıçılar təsərrüfatların dayanıqlığının təmin olunması məqsədilə növbəti **1 il ərzində konsultasiya xidmətindən** də yararlana biləcəklər.



# MONİTORİNQ

| # | Ad, Soyad | Avadanlığa dair | | |
|---|---|---|---|---|
| | | Mövcuddur | Bütövlük qorunub | İstifadədir |
| 1 | Rəvanə Səmədova | ✓ | ✓ | ✓ |
| 2 | Dilrubə Salmanova | ✓ | ✓ | ✓ |
| 3 | Ellada Səlimova | ✓ | ✓ | ✓ |
| 4 | Aynur Əliyeva | ✓ | ✓ | ✓ |
| 5 | Vüsalə Bayramova | ✓ | ✓ | ✓ |
| 6 | Ülviyyə Bayramova | ✓ | ✓ | ✓ |
| 7 | Həmidə Nəcəfova | ✓ | ✓ | ✓ |
| 8 | Stella Məlikova | ✓ | ✓ | ✓ |
| 9 | Nigar Süleymanova | ✓ | ✓ | ✓ |
| 10 | Xəyalə Məmmədzadə | ✓ | ✓ | ✓ |

# TƏSƏRRÜFATLAR





**Rəvanə Səmədova, Kürdəmir rayonu, Karrar kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində 2 dəfə arı yemi almaqla təsərrüfatını qoruya bilib. Hal-hazırda arı yeşiklərindən 1-i zəif, 1-i güclü, digər 3-ü isə orta vəziyyətdədir. Zəif olan yeşiyə güclü yeşikdən 1 çərçivə əlavə etməyi planlaşdırır. Gün ərzində təsərrüfata 0.5 saat ayıran Rəvanə xanım qeyd edir ki, həyətindəki nar ağaclarının çiçəklərinə arılar çox qonduğu üçün yaxşı tozlanma səbəbilə bu il daha çox məhsul əldə etmələri də gözlənilir. Bu il yeşiklərdən **40 kq bal məhsulunun alınması gözlənilir.** Dəstək göstərilən toxum və tinglərdən: 5 akasiya tingindən 5-i, 5 evodiya tingindən 4-ü, 10 pavlovniya tingindən 10-u da tutub, yarpaqlayıb. Avadanlıqların hər birinin bütövlüyü qorunub, istifadədədir. Fəaliyyətin dayanıqlılığının təmin olunmasında **mentorun rolu yüksəkdir.** Arı xəstəlikləri ilə bağlı maariflənməyə ehtiyacı var.






**Dilrubə Salmanova, Kürdəmir rayonu, Karrar kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində arı yumurtalarının çıxması üçün mət hazırlayıb, arı ailələrini qışdan çıxarmaq üçün yeşiklərin üzərinə yastıq və salafan örtük əlavə edib. Arı ailələrindən 1-inin ana arısı zəif olduğundan ailə tələf olub, digər **4 yeşik güclü vəziyyətdədir.** Boş olan yeşiyə digər yeşiklərdən çərçivə əlavə etməklə bərpa olunacaq. 1 yeşiyə isə artıq **2-ci mərtəbə əlavə olunub**. Ümumilikdə, bu il yeşiklərdən **40 kq bal** məhsulunun əldə edilməsi gözlənilir. Təsərrüfata gündəlik 0.5 saat ayırır. Arılar daha çox həyətyanı sahədə alça ağaclarının üzərinə qonur. Dəstək göstərilən **tinglərin hamısını əkib və hamısı tutub.** Xaşa və arı otu toxumları səpilib, su azlığı səbəbindən cücərmə yoxdur. Fəaliyyətin dayanıqlılığının təmin olunmasında mentorun rolu yüksəkdir. Arı ailələrin artırılması və arı xəstəlikləri ilə bağlı maariflənməyə ehtiyacı var.

# TƏSƏRRÜFATLAR





**Ellada Səlimova, Kürdəmir rayonu, Karrar kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində arı yemləri, dərmanlar almaqla təsərrüfatını qoruya bilib. Qışı keçirmək üçün yeşiklərin üzərinə yastıqlar əlavə edib. Hal-hazırda arı yeşiklərindən **5-i də yaxşı vəziyyətdədir**. Gün ərzində təsərrüfata 1 saat ayıran Ellada xanımın təsərrüfatından bu il **16 kq bal** məhsulunun alınması gözlənilir. Dəstək göstərilən **tinglərin hamısı tutub, yarpaqlayıb**. Toxumlar səpilib, normal vəziyyətdədir. Avadanlıqların hər birinin bütövlüyü qorunub, istifadədədir. Fəaliyyətin dayanıqlılığının təmin olunmasında **mentorun rolu yüksəkdir**. Arı xəstəlikləri, mərtəbə sayını artırmaqla bağlı maariflənməyə və praktiki məşğələyə ehtiyacı var.





**Aynur Əliyeva, Kürdəmir rayonu, Bağman kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində arı yemləri, dərmanlar, vitaminlər, şərbət qabları və qapaqlar üçün penoplastlar almaqla təsərrüfatını qoruya bilib. Təsərrüfatındakı arı ailələrindən biri tələf olsa da, yerinə **2 arı ailəsi alaraq** bərpa edib. Digər arı ailələri güclü olduğundan onlardan çərçivə ayıraraq boş yeşikləri də doldurub, hal-hazırda dolu vəziyyətdə **9 arı yeşiyi var**. Təsərrüfatdan bu il **84 kq bal məhsulunun** alınması gözlənilir. Dəstək göstərilən tinglərdən 16-ı tutub, yarpaqlayıb. Toxumlar səpilib, nəticə yaxşıdır, çiçəklənmə gedir. Avadanlıqların hər birinin bütövlüyü qorunub, istifadədədir. Fəaliyyətin dayanıqlılığının təmin olunmasında **mentorun rolu yüksəkdir**. Arı xəstəlikləri ilə bağlı maariflənməyə və praktiki məşğələyə ehtiyacı var.

# TƏSƏRRÜFATLAR





**Vüsalə Bayramova, Kürdəmir rayonu, Bağman kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində arı yemləri, vitaminlər, yastıqlar almaqla təsərrüfatını qoruya bilib. Dəstək göstərilən 5 yeşikdən əlavə 1-i də artırıb, **6 yeşiyə çatdırıb. Mentorun davamlı dəstəyinə** ehtiyac olduğunu xüsusilə vurğulayır. Dəstək göstərilən **tinglərin hamısı tutub, yarpaqlayıb**. Toxumlardan xaşa bitkisi səpilib, yaxşı inkişaf edib. Arı otunun gələn il səpilməsi nəzərdə tutulub. Avadanlıqların hər birinin bütövlüyü qorunub, istifadədədir. Təsərrüfatdan bu il **24 kq bal məhsulunun** alınması gözlənilir Aktiv olaraq internet resursları vasitəsilə təsərrüfatla bağlı biliklərini inkişaf etdirməyə çalışır. Ana arının izlənilməsi, çoxalma vaxtı, artırılması haqqında, arı xəstəlikləri və onlara qarşı mübarizə metodları barədə maariflənməyə və praktiki məşğələyə ehtiyacı var.





**Ülviyyə Bayramova, Kürdəmir rayonu, Bağman kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində arı yemləri, vitaminlər almaqla təsərrüfatını qoruya bilib. Hal-hazırda dəstək göstərilən 5 yeşikdən 2-ni yaxşı, 3-ü isə orta vəziyyətdədir. Dəstək göstərilən **20 tingdən 19-u** tutub, yarpaqlayıb. Toxumlardan xaşa bitkisi səpilib, quraqlıq səbəbilə tam yaxşı inkişaf etməyib, arı otu əkilməyib. Təsərrüfatla əsasən həyat yoldaşı məşğul olur. Təsərrüfatdan bu il **30 kq bal məhsulunun** alınması gözlənilir Mentorun dəstəyindən faydalanmağa meyilli deyil. Təlimlər zamanı təmin olunan kitablara, təlimatlara əsasən fəaliyyət göstərir.

# TƏSƏRRÜFATLAR





**Həmidə Nəcəfova, Kürdəmir rayonu, Garis-Əyribənd kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində dərmanlar almaqla, yastıqlar tikib yeşiklərin üstünü örtməklə təsərrüfatını qoruya bilib. Dəstəkdən əvvəl 3 arı ailəsi olan Həmidə xanımın hazırda cəmi 8 arı ailəsi var, yeşiklərin vəziyyyəti yaxşıdır. Təsərrüfatdan bu il **28 kq bal məhsulunun** alınması gözlənilir. Gündəlik təsərrüfata 1 saat vaxt ayıran fermer dəstək göstərilən tinglərdən evodiya və pavlovniya tinglərini əkib, tinglər tutub və yarpaqlayıb, akasiya tingləri əkilməyib. Toxumlardan xaşa bitkisi sapilmıyib, arı otu səpilib. Avadanlıqların bütövlüyü qorunub, istifadədədir. Arı xəstəlikləri, beçə verən zaman arı yeşiklərinin bölünməsi ilə bağlı praktiki biliklərə ehtiyacı var.





**Stella Məlikova, Kürdəmir rayonu, Karrar kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində arı yemi, dərmanlar, vitaminlər, yastıqlar və örtüklər vasitəsilə təsərrüfatını qoruya bilib. Arı aillələrinin vəziyyəti yaxşıdır. Təsərrüfata gündəlik 1 saat vaxt ayıran fermer dəstək göstərilən tinglərdən evodiya və pavlovniya tinglərini əkib, tinglər yarpaqlayıb. Akasiya tingləri əkilməyib. Toxumların hər ikisi səpilib, arı otu yaxşı bitib. Avadanlıqların bütövlüyü qorunub, istifadədədir. Təsərrüfatın fəaliyyətinin dayanıqlılığının təmin olunmasında **mentorun rolu yüksəkdir**. Arının çoxaldılması, ana arının yetişdirilməsi ilə bağlı biliklərə ehtiyacı var.

# TƏSƏRRÜFATLAR





**Nigar Süleymanova, Kürdəmir rayonu, Garis-Əyribənd kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində dərmanlar, preparatlar vasitəsilə təsərrüfatını qoruya bilib. Dəstəkdən əvvəl 1 arı ailəsi olan Nigar xanımın hazırda cəmi 6 arı ailəsi var, yeşiklərin vəziyyyəti yaxşıdır, bir arı ailəsinin vəziyyəti nisbətən zəifdir. Təsərrüfatdan bu il **40 kq bal məhsulunun** alınması gözlənilir. Gündəlik təsərrüfata 0.5 saat vaxt ayıran fermer dəstək göstərilən tinglərin hamısını əkib, tinglər tutub və yarpaqlayıb. Toxumlar isə səpilməyib, payıza səpilməsi nəzərdə tutulub. Avadanlıqların bütövlüyü qorunub, istifadədədir. Arı xəstəlikləri zamanı preparatların düzgün təyin edilməsi, ana arının yetişdirilməsi ilə bağlı biliklərə ehtiyacı var.





**Xəyalə Məmmədzadə, Kürdəmir rayonu, Garis-Əyribənd kəndi**

Fermer dəstək göstərilən müddətdən sonrakı 7 ay ərzində dərmanlar, preparatlar, yastıqlar, arı yemi vasitəsilə təsərrüfatını qoruya bilib. Dəstəkdən əvvəl 1 arı ailəsi olan Xəyalə xanımın təsərrüfatında dəstək göstərilən yeşiklərdən briində arı ailəsi tələf olub, hazırda cəmi 5 arı ailəsi var, yeşiklərin vəziyyyəti yaxşıdır,. Təsərrüfatdan bu il **24 kq bal məhsulunun** alınması gözlənilir. Gündəlik təsərrüfata 0.5 saat vaxt ayıran fermer dəstək göstərilən tinglərin hamısını əkib, **tinglər tutub və yarpaqlayıb**. Toxumlar səpilib. Avadanlıqların bütövlüyü qorunub, istifadədədir. Arı xəstəlikləri zamanı preparatların düzgün təyin edilməsi ilə bağlı biliklərə ehtiyacı var.